

**SVETLANA BAYRAMOVA,**
YAP-ın məsul işçisi

# ŞƏXSİYYƏT VƏ ZAMAN

Tarixi substansiyanın müxtəlif mərhələlərində liderin dəyəri hadisələrə nüfuz etmək və xalqı öz ardınca apara bilmək qabiliyyəti ilə ölçülür. Lider parlaq, müstəqil, güclü olanda, onun siyasəti və psixologiyası ölkənin ideologiyasına çevrilir. Milli ideyanın daşıyıcısı özündə ümumbəşəri inkişafı ehtiva edərək, öz fəaliyyətini, idarəetmə strukturlarını təkmilləşdirmək, ictimai tərəqqini təmin etmək kimi məqsədlərə yönəldərsə, ümummilli liderə çevrilərək, ümumxalq məhəbbətini və etimadını qazanır.

Yalnız bu kimi məziyyətlərə malik tarixi şəxsiyyətlər dövlətə başçılıq edərkən ölkələr inkişaf edir, millətlər dirçəlir, məmləkətlər abadlaşır.

Bu qəbildən dövlət xadimləri ölkəni sərt üsullarla idarə etdikdə, xalq mənafeyi naminə avtoritar metodlara əl atdıqda belə, onların nüfuzuna xələl gəlmir, cəmiyyətdəki mövqelərini əldən vermirlər. Öz müasirlərinin müəyyən hissəsinin qınağı ilə üzləşsələr də, tarix onların qiymətini verir.

Makiavellinin «təki nəticələr haqq qazandırsın, əməllərə görə ittiham olunmağın eybi yoxdur. Əgər nəticələr yaxşı olarsa, tarix ona həmişə haqq qazandıracaq» deyimi bunu bir daha təsdiq edir.

Müasir dünyada da liderə münasibətdə bu cür meyarlar əsas götürülür və hakimiyyətə gəlmək şansı belə məziyyətlərin daşıyıcılarına verilir. Demokratik dəyərlərə sadiqliyinə görə seçilən Amerika Birləşmiş Ştatlarında son dərəcə geniş yayılmış belə bir formul mövcuddur: «Dövlət xadimi üstəgəl qeyri-adi insan, üstəgəl dəyərli fikir və mülahizələr».

Bəşəriyyətin inkişafının bütün mərhələlərində elə şəxsiyyətlər meydana çıxmışdır ki, onlar həlledici məqamlarda məsuliyyəti öz üzərilərinə götürüb, tarixi missiyaları həyata keçirə bilmişlər. Tarixi şəxsiyyətlər barədə söhbət gedəndə, hər şeydən əvvəl bu cür insanların yaşadıqları dövrün səciyyəsini vermək zərurəti meydana çıxır, şəxsiyyət və zaman anlayışı vəhdətdə götürülür.

Azərbaycanın çoxəsrlik tarixinə nəzər salsaq, görərik ki, iqtisadi-siyasi yüksəlişi şərtləndirən nüvə funksiyasını bir qayda olaraq xalqa rəhbərlik edən tarixi şəxsiyyətlər öz üzərilərinə götürmüşlər. Bu səbəbdən də xalqımızın qan yaddaşına həkk olunan liderlər – hökmdarlar, eyni zamanda, el ağsaqqalı kimi qəbul edilmişlər. Xalqımız daxili strukturuna görə zəngin, yüksək dərəcədə dözümlü, yeni ideya və dəyişikliklərdən bəhrələnən olduğundan, yetişdirdiyi qüdrətli şəx-

siyyətlər də özlərində bu keyfiyyətləri yaşatmışlar. Qüdrətli şəxsiyyətlərin sırasında siyasət xadimləri ictimai fikir uğrunda mübarizə aparmaqları ilə seçilmişlər. Siyasət ətaləti sevmədiyindən, siyasi liderlər çevik, fəal mövqelərinə görə fərqlənən, maneələri dəf etməyi bacaran insanlar olurlar.

Azərbaycan dövlətinin tarixində ümummilli lider kimi bütün xalq tərəfindən qəbul edilən ölkə rəhbərinə rast gəlmək nadir hadisədir. Bəlkə bu səbəbdən də Azərbaycan dövlətinin taleyi dəfələrlə təhlükə qarşısında qalmış, tarixin müxtəlif mərhələlərində torpağımızda qardaş qırğınları baş vermişdir.

Antik dövrün filosoflarından olan Antisfenin belə bir kəlamı vardır: «Siyasətlə odla rəftar edən kimi davranmaq lazımdır. Yaxın olsan, yandırar, uzaq olsan, dondurar».

Lider ayrı-ayrı insanların düşüncə və arzularını ideya şəklinə salır, xalqın milli ideologiyasının formalaşmasına xidmət göstərir. Tarixən Azərbaycan cəmiyyətinin xarakterik xüsusiyyəti onun açıq cəmiyyət olması, yeni ideya və dəyişikliklərə meydan verməsidir. Eyni zamanda, mentallığa sadiqlik də xalqımıza xasdır. Azərbaycanda milli, mənəvi dəyərləri qoruyub saxlamağı bacarmaqla bərabər, mütərəqqi meyllərə biganə olmayan iti intuisiyası, hissetmə və əvvəlcədən proqnozlaşdırma qabiliyyəti olan insanlar siyasi lider kimi özlərini təsdiq edə bilərlər.

Siyasət liderinin daha bir məziyyəti insanların şüurunda mövcud olan düşüncə və arzuları aşkara çıxara bilmək qabiliyyətidir.

Hakimiyyətə gəlmiş, dövlətə rəhbərlik etmiş şəxslərin heç də hamısı siyasi lider kimi özlərini təsdiq edə bilmirlər. Yalnız ali dövlət maraqlarını bütün mənafelərdən üstün tuta bilən dövlət rəhbəri xalqın şüurunda özünə yer tutur, cəmiyyət tərəfindən qəbul edilir, siyasi liderə çevrilərək, yaddaşlara milli qəhrəman kimi həkk olunur.

34 ilə yaxındır ki, Azərbaycan xalqının bütün ictimai-siyasi, sosial-iqtisadi, maddi-mənəvi həyatı Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş, bir çox uğurlar əldə etmiş, müstəqil dövlət kimi bərqərar olmuşdur.

Milli mənafeyi xalq mənafeyinə, xalq mənafeyini isə dövlət mənafeyinə çevirə bilən siyasi liderlər öz ölkələrinin tərəqqisini təmin etməklə bərabər, həm də beynəlxalq nüfuz və etibar qazanırlar.

Tarixi şəxsiyyətlərin həyatının tədqiq edilməsi hər bir xalqın keçdiyi inkişaf yolunu öyrənmək baxımından çox təqdirəlayiqdir. Böyük şəxsiyyətlərin öz yaşadıqları dövrdə onlar haqqında çoxlu məqalələr, elmi-tədqiqat əsərlərinin yazılmasında bir qanunauyğunluq vardır.

Heydər Əliyev, bir qayda olaraq, məqamına uyğun siyasət aparmağı bacarır. İstər kommunist rejimi dövründə Azərbaycana rəhbərlik edərkən, istər super dövlət SSRİ-nin rəhbərlərindən biri olarkən, istər doğma yurdu Naxçıvanın Ali Məclisinin sədri kimi fəaliyyət göstərərkən, istərsə də müstəqil Azərbaycanın prezidenti kimi müxtəlif miqyaslı və ayrı-ayrı ictimai-siyasi mahiyyətli qurumlara başçılıq edərkən ən optimal siyasi peşəkarlıq nümayiş etdirmişdir.



Çin müdriklərinin təbirilə desək, düşmənə qalib gəlməyi bacaran sərkərdə hücum etməyə lüzum görmədiyindən, Heydər Əliyev həmişə balanslaşdırılmış siyasət yürüdərək, ən çətin şəraitlərdən çıxmağı bacarmışdır.

Heydər Əliyev son dərəcə çətin tarixi şəraitdə belə milli dəyərləri yaşatmaq, dövlətçiliyi qorumaq, Azərbaycanın inkişafına nail olmaq kimi çətin vəzifəni yerinə yetirmişdir.

Siyasi həyatdan uzaqlaşmaq məcburiyyətində qaldığı illərdə də Heydər Əliyev öz həyatını doğma xalqının problemlərindən ayrı hesab etməmiş, daim öz ölkəsi, yurdu barədə qayğılarla yaşamış, təbiətin ona bəxş etdiyi liderlik xüsusiyyətlərini özündə saxlamışdır.

Heydər Əliyev şəxsiyyətinin gücü onun xalqına bağlılığında, torpağına olan həddsiz məhəbbətində, fitri və parlaq istedadında, dərin zəkasında, gözəl və təkrarolunmaz natiqlik bacarığındadır.

Zaman nöqteyi-nəzərindən Heydər Əliyevin fəaliyyətini üç dövrə bölmək olar:

I dövr – 1940-1987-ci illər
II dövr – 1987-1990-cı illər
III dövr –1990-cı ildən sonrakı dövr

1940-1987-ci illər Heydər Əliyevin bir şəxsiyyət və dövlət rəhbəri kimi formalaşması dövrüdür. Dövlət Təhlükəsizlik orqanlarında əmək fəaliyyətinə başlayan Heydər Əliyevin bu son dərəcə məsuliyyətli sistemin rəhbəri vəzifəsinə yüksəlməsi zaman etibarı ilə o qədər də uzun zaman kəsiyində deyil, — cəmi 20 il ərzində baş vermişdir.

Azərbaycanda ilk dəfə olaraq milli kadr — Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsinə sədr vəzifəsinə təyin olunmuşdur.

Sıravi hərbçidən general rütbəsinə cəmi bir neçə ilə qalxan Heydər Əliyev qapalı mühitin sərhədlərini aşaraq nəinki bu sahədə uğurlar qazanmış, hətta respublika rəhbərliyinə özünün ən layiqli namizəd olduğunu fəaliyyəti ilə sübut etmişdir. Məlumdur ki, məhdudiyyətlər dövlət təhlükəsizliyi sistemində işləyənlərin fəaliyyətlərinə qadağa qoyur, onların ictimaiyyətə tanınmasına maneəçilik törədirdi. Lakin, Heydər Əliyev zaman və məkan anlayışının fövqündə durmağı bacardığından heç bir məhrumiyyət onun kommunikabelliyinə, təbiətə, incəsənətə, musiqiyə olan məftunluğuna və marağına xələl gətirə bilməmiş, istiqanlılığını və insansevərliyini dəyişməmişdi. Həmin dövrdə respublikada millətçi, şovinist və ya antisovet təbliğatçısı möhürü ilə damğalanmış heç bir görkəmli sənət adamının «faş olunmaması» hər şeydən əvvəl Heydər Əliyevin milli təəssübkeşliyindən və öz soydaşlarına olan qayğı və məhəbbətindən irəli gəlirdi. Gənc general azad fikirli, cəsarətli adamları şəxsən özü himayə edir, hər cür qaragüruhçuluğun qarşısını almağı bacarırdı.

Azərbaycan Respubikasına rəhbərlik etməyə başladıqdan sonra Heydər Əliyev imkan yaradırdı ki, bütün istedadlı insanlar özləri istədikləri fəaliyyətlə məş-

ğul olsunlar. Heydər Əliyevin lider və şəxsiyyət kimi qəbul olunmasında və ümumxalq məhəbbəti qazanmasında Azərbaycanda 1969-1982-ci illər ərzində respublikamızın tərəqqisi üçün gördüyü işlər müstəsna rol oynamışdır.

Hər şeydən əvvəl Heydər Əliyev Azərbaycanı geridə qalmış əyalət respublikasından inkişaf edən qabaqcıl bir diyara çevirməyə nail olmuşdur.

Respublikanın bütün resurslarını aşkara çıxararaq inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Heydər Əliyev sübut etmişdir ki, Azərbaycanın qiymətli təbii sərvətlərindən az əhəmiyyət kəsb etməyən böyük mədəniyyəti, qədim tarixi, görkəmli sənət adamları, elm xadimləri vardır.

İttifaq hökumətinin diqqətini Azərbaycana cəlb etməyi bacaran böyük siyasi xadim Heydər Əliyev, eyni zamanda ölkənin bütün imkanlarından da vətənin tərəqqisi üçün istifadə etməyi bacarmışdır.

1982-1987-ci illər ərzində SSRİ-nin rəhbərlərindən biri və ən ali orqan olan Siyasi Büronun üzvü kimi Heydər Əliyev yenə də Azərbaycan naminə çalışmış, özünün bütün güc və bacarığını bu işə səfərbər etmişdir. Kommunist rejiminin hökm sürdüyü şəraitdə Heydər Əliyev dövrün ideologiyasının imkanları çərçivəsinə sığmayaraq onu yarmış, şəxsiyyət və lider kimi tam formalaşaraq, zamanı qabaqlamışdır. Heydər Əliyev şəxsiyyətinin tam böyüklüyünü dərk etmək üçün onun taleyində əlahiddə dövr olan 1987-1990-cı illərdə baş verənləri təhlil etməyin xüsusi əhəmiyyəti vardır. 1987-ci ildən Heydər Əliyevin həyatının tam fərqli bir dövrü – ictimai-siyasi mühitdən uzaqlaşdırılması dövrü başlanmışdır.

Qüdrətli dövlət xadimi, bacarıqlı təşkilatçı, yüksək intellektə, hərtərəfli dünyagörüşünə malik insan, enerjisinin aşıb-daşdığı, sağlamlığına çoxlarının həsəd apardığı Heydər Əliyev istefa vermək məcburiyyətində qalır. Heydər Əliyevin vəzifəcə ondan yüksəkdə duranlardan dəfələrlə qabiliyyətli və istedadlı olması, ətrafdakıların onun fonunda çox cılız, fərsiz və miskin görünmələri ölkə rəhbərlərini bərk təşvişə salır və narahat edirdi.

1987-1990-cı illər ərzində Heydər Əliyev özü üçün tamamilə yeni şəraitlə – təqaüdçü ömrünü yaşamaq məcburiyyəti ilə üzləşirsə də, ailəsinin, balalarının sevgisi və qayğısı ilə əhatə olunduğundan rahatlıq tapır.

Lakin təkcə doğmalarının deyil, eyni zamanda çoxsaylı insanların özünə olan sevgi və ehtiramını daim hiss edir.

Azərbaycan xalqı özünün yetişdirdiyi bu böyük övladını heç zaman unutmur, onun qurub-tikdiklərindən, yaratdıqlarından faydalandıqca onu böyük minnətdarlıqla yad edir.

1988-1990-cı illərdə baş verən proseslər öz opogeyinə 1990-cı illin qanlı Yanvar faciəsi zamanı çatmışdır. Yanvar faciəsi artıq Azərbaycana qarşı düşmənçiliyin qlobal xarakterindən xəbər verir, qana susamış düşmənlərimizin xalqımızın məhvinə yönəlmiş siyasətini faş edirdi. Xalqımızın ən faciə günlərində Heydər Əliyev sovet ordusunun törətdiyi vəhşiliklərə qarşı etiraz səsini Moskvadan ucaldaraq millətinə sahib çıxdığını bütün dünyaya sübut etdi.



Kommunist rejimi və Qorbaçov üsul-idarəsinin süqutunu sürətləndirən hadisə kimi Heydər Əliyevin Yanvar faciəsinə verdiyi qiymət və etiraz dolu bəyanatı böyük tarixi əhəmiyyət daşıyır. Böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyevin ölkə rəhbərliyini baş verən hadisələrə görə birbaşa ittiham etməsi sovet dövlətinin tarixində görünməsinin siyasi protest, kommunist ideologiyasına, inzibati idarəetmə üsul-idarəsinə, şovinizmə qarşı etiraz kimi səslənmiş və böyük rezonans doğurmuşdu.

Eyni zamanda bu hadisə xalqını böyük məhəbbətlə sevən, lakin hakimiyyətin qoyduğu qadağalar ucbatından millətinə yetişmək imkanlarından məhrum edilən mərd insanın, dahi şəxsiyyətin haqq deyib hayqıran sədası kimi dərk edilməlidir.

1990-cı ildən başlayaraq Heydər Əliyevin həyatının yeni dövrü – xalqının düşdüyü ağır vəziyyətdən xilasına istiqamətlənmiş fəaliyyəti başlanmışdır.

1990-cı ildə sıravi azərbaycanlı kimi öz etiraz səsini xalqına olan qanlı terrora qarşı çıxmaqla ucaldan Heydər Əliyev bu missiyasını daha da genişləndirərək xalqının xilaskarına və ölkəsinin müstəqilliyinin etibarlı təminatçısına çevirə bilmişdir.

Qızıl Meydanın qarşısında etiraz mitinqindən başlanan bu yol Ağ evdə (ABŞ) kiçik bir dövlətin başçısının super dövlətin prezidenti tərəfindən bərabərhüquqlu tərəf-müqabil kimi qarşılanmasına qədər gəlib çıxmışdır.

Heydər Əliyev kimi miqyaslı siyasətçinin sovet rəhbərliyinə ittihamlarından lərzəyə gələn Qorbaçov hakimiyyəti bütün resurslarını işə salaraq, xalqımızın sınanmış liderinə qarşı təzyiqlərə başlasalar da, onların bu çirkin niyyətləri iflasa uğramışdır. Azərbaycanın dahi oğlu ən çətin sınaq günlərində öz doğma xalqının yanında olmaq üçün vətənə dönmək qərarına gəlir.

Heydər Əliyevin Bakıya qayıtmasına mane olmaq üçün milli xəyanətkarların törətdiyi əməllər tarixin qınağından kənarda qalmayacaqdır. Bu böyük şəxsiyyətə qurub-yaratdığı, abad bir məmləkətə çevirdiyi doğma vətəninə, onun paytaxtına gəlməyə mane olanlar bir şeyi unutmuşlar ki, «Günəşi örtsə də qara buludlar, yenə günəş adlı bir şöhrəti var».

Bakıda üzü dönüklərin, vəzifəpərəst xainlərin namərdlikləri ilə üzləşən Heydər Əliyev Azərbaycanın qurtuluşu naminə Ana yurdu, doğma ocağı, qoynunda doğulub ərsəyə gəldiyi Naxçıvana getməli olmuşdur. Xalqımızın böyük oğluna qucağını səxavətlə açan Naxçıvan onu bütün Azərbaycanın xilası üçün qorumuş, hifz etmişdir.

Dünyanın altıda bir hissəsinin ərazisində yerləşən dövlətin rəhbərlərindən olmuş Heydər Əliyev Naxçıvan əhalisinin təkidi ilə təcrid Muxtar Respublikanın Ali Məclisinə sədr seçilmişdir. Əslində Heydər Əliyevin millətin və Vətənin xilaskarı missiyasını öz üzərinə götürməsi prosesi öz başlanğıcını Naxçıvandan götürmüşdür. 1990-1993-cü illərdə Naxçıvan bütün Azərbaycanın nicat gözlədiyi və ümidlə baxdığı qüdrətli şəxsiyyət Heydər Əliyevin istinad nöqtəsinə çevrilmişdir.

Gərgin və səmərəli fəaliyyəti ilə Heydər Əliyev Naxçıvanı hər cür müdaxilədən qorumuş, müstəqil Azərbaycanın modelini hələ Sovet İttifaqı dağılma-

mışdan əvvəl Naxçıvanda qurmağa başlamışdır. Heydər Əliyev zamanı qabaqlamaq məharəti ilə ictimai-siyasi prosesləri düzgün axara yönəldə bilmiş, blokadanın bütün məhrumiyyətlərinə rəğmən Naxçıvanda sabitliyi bərqərar edərək, bu mühüm strateji məntəqəni hər cür müdaxilədən qorumuşdur. Böyük şəxsiyyətlər bütün situasiyalarda proseslərə nüfuz etməyi bacarır, öz liderlik funksiyalarını yerinə yetirirlər.

Ölkədə gedən proseslər Azərbaycanı düşdüyü ağır böhran vəziyyətindən xilas etmək üçün ümumxalq liderinin hakimiyyətə gəlməsinin vacibliyini diqtə edirdi.

On ildir ki, Azərbaycan xalqı böyük şəxsiyyət və dahi insan Heydər Əliyevin rəhbərliyi altında yaşayır. İnsan yaddaşı unutqan olduğundan, biz bəzən on il ərzində baş verən hadisələrin fərqinə varmırıq. Lakin, həqiqət budur ki, bu on ildə Azərbaycan torpaqları hərraca qoyulan, milli mənliyinə qəsd edilən, dağılıb viranəyə çevrilən, düşmən tərəfindən işğala məruz qalan ölkədən dünyanın inkişaf etməkdə olan dövlətlərindən birinə çevrilmişdir. Ölkəmizdə sosial-iqtisadi, maddi-mənəvi inkişaf çox sürətlə gedir, köklü islahatlar həyata keçirilir. Azərbaycan bu gün dünyanın ən nüfuzlu ölkələri ilə hərtərəfli əməkdaşlıq edir, bərabərhüquqlu tərəfmüqabili kimi iqtisadi və siyasi əhəmiyyətli danışıqlar aparır, diplomatik missiyalar yerinə yetirir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev bu illər ərzində özünün böyük tarixi şəxsiyyət və ümumxalq lideri olduğunu bir daha təsdiq etmişdir. Heydər Əliyevin tükənməz enerjisi çoxillik dövlətçilik təcrübəsi, qabiliyyəti və bacarığı, yüksək intellekti, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, xalqın rifahının yüksəlməsinə yönəlmişdir.